# Azərbaycan Ordusu son iki ildə daha da güclənib

İftixar hissi ilə deyə bilərik ki, iki il öncə Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra Qazaxdan başlayaraq, Hadruta, Xudafərinəcən, habelə Naxçıvan Muxtar Respublikası istiqamətində Azərbaycan-Ermənistan dövlət sərhədi boyunca düşmən təxribatlarının və erməni silahlı birləşmələrinin hücumlarının qarşısını almaq, insanların təhlükəsizliyinə lazımi təminat yaratmaq üçün yeni sərhəd zastavaları və müxtəliftəyinatlı hərbi hissələr yaradılır. Bu, 30 illik erməni işğalından azad edilmiş ərazilərdə sabitliyin əsas amilinə çevrilməklə, Azərbaycan ictimaiyyətində qürur hissi doğurur.

Dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bölgələrə səfəri zamanı daim yeni yaradılmış hərbi hissələrdə olur, zabit və əsgərlərlə görüşür, onların məişət şəraiti və hərbi hazırlığı ilə yaxından maraqlanır. Belə səfərlərdən biri də noyabrın 7-də reallaşıb. Prezident, Ali Baş Komandan İlham Əliyev Füzuli rayonu ərazisində Müdafiə Nazirliyinin yeni istifadəyə verilmiş "N" saylı hərbi hissəsində olub. Əvvəlcə Prezident İlham Əliyev hərbi şəhərciyin ərazisində şəhidlərin xatirəsinə ucaldılmış abidə kompleksinin önünə gül dəstəsi qoyub, burada ağac əkib. Hərbi şəhərciyin qərargah binası ilə tanış olub. Dövlət başçısı hərbçilərlə birgə xatirə şəkli çəkdirib, onları 8 Noyabr Zəfər Günü münasibətilə təbrik edib.

Şəxsi heyətin xidməti və məişət şəraitinin təmin edilməsi məqsədilə əsaslı təmir olunmuş hərbi şəhərcik ərazisində qərargah, yeməkxana, tibb məntəqəsi, əsgər yataqxanaları, hamam-camaşırxana, avtomobil parkı, müxtəliftəyinatlı anbarlar, eləcə də digər infrastruktur obyektləri mövcuddur. Burada döyüş hazırlığının və qoşun xidmətinin yüksək səviyyədə təşkili, döyüş əməliyyatları zamanı bölmələrin operativ idarə olunması, eləcə də digər qoşun növləri ilə qarşılıqlı əlaqənin təmin edilməsi üçün müasir kommunikasiya və informasiya vasitələri ilə təchiz olunmuş idarəetmə mərkəzi, rabitə qovşağı və digər xidməti otaqlar var. Prezident İlham Əliyev hərbi şəhərcikdə, bütün bunlarla yanaşı, əsgər yataqxanası, yeməkxana və idman zalı ilə də tanış olub. Şəhərcikdə hərbi qulluqçular və onların ailələri üçün yeni istifadəyə verilmiş iki və üçmərtəbəli yaşayış binaları, məktəb və uşaq bağçası fəaliyyətdədir. Burada hərbi qulluqçuların səmərəli istirahəti üçün müasir standartlara uyğun şərait yaradılıb.

Dövlətin qüdrətini şərtləndirən əsas amillərdən ən başlıcası iqtisadi yüksəlişə və güclü orduya malik olmasıdır. Bu gün qürurla deyə bilərik ki, ölkəmiz iqtisadi və siyasi nailiyyətlərlə yanaşı, ordu quruculuğu prosesində də böyük uğurlar əldə edib. Dünya ictimaiyyəti etiraf edir ki, Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvəsidir. Hazırda ölkəmizdə yaradılan müasir və modern ordu quruculuğu ilə yanaşı, qazanılan bütün nailiyyətlərin əsasında Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır.

Bu siyasətin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib. Ölkəmiz həm də ötən dövr ərzində sayılıb-seçilən dünya dövlətləri səviyyəsində möhtəşəm ordu quruculuğuna nail olub. Bunu təkcə Azərbaycan vətəndaşları deyil, tanınmış hərbi ekspertlər, analitiklər və dünya ictimaiyyəti təsdiq edir.

Məmnunluq doğuran odur ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində sistemli ordu quruculuğu prosesi yeni keyfiyyət mərhələsinə yüksəlib. Görülən bütün bu işlərin nəticəsində Azərbaycan Ordusu yüksək döyüş hazırlığına nail olub və qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadirdir. Ordumuz bu gün ən müasir texnika və silahlarla təmin olunub. Paralel olaraq ölkəmizin hərbi sənaye kompleksi inkişaf edir. Belə ki, Müdafiə Sənayesi Nazirliyi xeyli adda hərbi məhsullar istehsal edir ki, bu da beynəlxalq müstəvidə hərbi sənaye kompleksimizə, istehsal olunan silahlara və digər məhsullara marağı xeyli artırır. Beynəlxalq sərgilərdə ölkəmizin hərbi məhsullarına böyük marağın olması bunu deməyə əsas verir.

Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Son illər ərzində ölkəmizdə 20-dən çox hərbi zavod yaradılıb. Bu zavodlarda çoxsaylı hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Eyni zamanda Azərbaycan artıq hərbi məhsullarını ixrac etməyə başlayıb. Son iki ildə Azərbaycan Ordusu daha da möhkəmlənib. Dövlət başçısının qeyd etdiyi kimi, son illər ərzində ən müasir texnika və silahlar alınıbdır: "Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır. Deyə bilərəm ki, ordunun maddi-texniki təchizatı baxımından Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir".

Azərbaycanda hərbi məktəblərin uğurlu fəaliyyəti də bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bu, sözügedən sahədə tədris prosesinin sistemli şəkildə və ardıcıllıqla davam etdirilməsinə, nəticə etibarilə, kadr potensialının inkişafına, orduda peşəkarlığın daimi olaraq artırılmasına imkan verir. Bundan başqa, Azərbaycan zabitləri NATO standartlarına uyğun olaraq hərbi təlimlərdə iştirak edirlər, kurslar keçirlər. Hərbçilərimiz istər ABŞ-də, istər Türkiyədə, istərsə də, Avropanın ayrı-ayrı ölkələrində təcrübələrini artırırlar, gənclərimiz ayrı-ayrı ölkələrə hərbi təhsil almağa göndərilirlər.

Bütövlükdə, Azərbaycan Silahlı Qüvvələri quruda, suda və havada döyüş tapşırığını yerinə yetirmək, ölkəni istənilən hücumdan müdafiə etmək qüdrətinə malikdir. Beynəlxalq hərbi tədqiqat mərkəzlərinin rəyinə görə, Azərbaycan Ordusu regionun ən hazırlıqlı və müasir hərbi strukturu sayılır.

Təsadüfi deyil ki, indi dünyanın inkişaf etmiş dövlətləri Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktikasını öyrənir. Dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, uğurlarımız, qələbəyə aparan yollar, taktiki addımlar əxz edilir. Xarici KİV-də dəfələrlə məlumat verilmişdir ki, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələrdə İkinci Qarabağ müharibəsinin bütün aspektləri, Azərbaycan Silahlı Qüvvələrinin hərbi taktikası, terror və təxribat əməllərinin qarşısının alınması üsulları tədris edilir. Əsgər və zabitlərimizin döyüş qabiliyyətini yüksək qiymətləndirən ekspertlər bu fikirdədirlər ki, Azərbaycan Ordusunun döyüş taktikası hətta ən fövqəlgüc ölkələrin ordularında belə qeydə alınmayıb. Hücum dronlarının döyüşdəki yüksək hədəf dəqiqliyi dünya hərb tarixində bir ilkdir. Şuşanın azad edilməsi uğrunda hərbçilərimizin nümayiş etdirdiyi qeyri-adi peşəkarlıq beynəlxalq ictimaiyyətdə heyrət doğurur.

Görünən odur ki, dünyanın ən güclü silahlı qüvvələri sırasında yer alan Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin bütün əmr və tapşırıqlarını yerinə yetirməyə, xalqımızın və dövlətimizin etimadını şərəflə doğrultmağa daim hazırdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 13 noyabr.- S.6.